**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**SƏBA AZAD QIZI NAMAZOVA**

# “MOLLA NƏSRƏDDİN” JURNALI VƏ GƏNCƏ ƏDƏBİ MÜHİTİ

5716.01 – Azərbaycan ədəbiyyatı

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2014**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun Yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | **Alxan Bayram oğlu Məmmədov**<br>filologiya üzrə elmlər doktoru, professor |
| Rəsmi opponentlər: | **Əsgər Nadir oğlu Qədimov**<br>filologiya üzrə elmlər doktoru, professor |
| | **Allahverdi Məhərrəm oğlu Məmmədli**<br>filologiya üzrə fəlsəfə doktoru |
| **Aparıcı təşkilat:** | Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrası |

**Müdafiə** "_14_" _03__ 2014-cü il saat "____"-da Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.131 – Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti, 115, Akademiya şəhərciyi, əsas bina, V mərtəbə.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi kitabxanasında tanış olmaq mümkündür.

**Avtoreferat** "____" __________ 2014-cü ildə göndərilmişdir.

D.01.131 Dissertasiya Şurasının
elmi katibi, filologiya üzrə
elmlər doktoru **İmamverdi Yavər oğlu Həmidov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan satira ənənələrinin inkişafına öz nəşri ilə təkan vermiş "Molla Nəsrəddin" jurnalı milli mətbuat tarixində satirik jurnalistikanın da əsasını qoymuşdur. Böyük Mirzə Cəlilin xalqımıza bəxş etdiyi əvəzsiz mənəvi abidə olan jurnal, oyanış, intibah ideyalarının təşəkkülünə rəvac verdi, ətrafına topladığı istedadlı qələm sahiblərinin sözünün qüdrətinə söykənərək mübarizəsini sonadək fədakarcasına davam etdirdi. Ölkənin ictimai-siyasi, sosial-mədəni həyatında baş verən hadisələrə realist-tənqidi mövqedən yanaşaraq onlara demokratik düşüncə tərzi ilə münasibətini bildirən "Molla Nəsrəddin" jurnalı XX əsrin başlanğıcında, gərgin və təlatümlü proseslərin cərəyan etdiyi dövrdə qələmini sərt bir formada öz əməlləri ilə millətə düşmən olan qüvvələrə qarşı çevirirdi. Azərbaycan MEA-nın müxbir üzvü Əziz Mirəhmədov jurnalın təkrar nəşrinin I cildinə ön sözündə yazmışdır:

"Molla Nəsrəddin"in doğuluşu dövründə xalq özü də azadlıq, demokratiya, tərəqqi uğrunda mübarizəsində tənqid silahından, gülüşün müxtəlif növlərindən istifadə edirdi. O, gah qəzəbli istehza və nifrətli kinayə ilə, gah da yüngül, zarafatyana və şən-sadədilanə gülüşlə ürəyini boşaldır, bundan yaşamaq və işləmək üçün qüvvə alırdı".[1] Jurnalın səhifələrində təkcə Azərbaycanın deyil, bütövlükdə Qafqazın, Rusiya məmləkətinin, Yaxın və Orta Şərqin, demək olar ki, bütün sosial-siyasi, ideya-əxlaqi, mənəvi-psixoloji, etno-mədəni hadisə və prosesləri müxtəlif janr və ölçülü poetik və publisistik yazılarda, karikaturalarda obrazlı şəkildə əks etdirilmişdir. Həmin materiallar ideyalılığı, məqsədyönlüyü, obrazlılığı, milli və vətəndaşlıq mövqeyi, ümumiləşdirmə gücü ilə əsl bədii-estetik sənət nümunələridir. "Molla Nəsrəddin"in səhifələrində, onun yazı və rəsm materiallarında dövrün nəbzi, zamanın axarı, cəmiyyətdə baş verən ən müxtəlif proseslərin xarakterik xüsusiyyətləri aydın şəkildə duyulmaqda, görünməkdədir. Onun ədəbi mövqeyi realizmin estetik prinsiplərinə əsaslandığı üçün müəllif kollektivinin sənətə baxışları və təsvir üsulları da realizmə əsaslanırdı.

"Molla Nəsrəddin"də zamanın xarakterik xüsusiyyətlərini özündə ifadə edən hadisə və proseslər realist bədii ümumiləşdirmə bacarığı ilə əks etdirilirdi. Buna mollanəsrəddinçilərin sənətkarlıq qüdrətləri ilə yanaşı, birinci növbədə dövrün ən səciyyəvi cəhətlərini özündə ifadə edən etnik

---

[1] Əziz Mirəhmədov. "Molla Nəsrəddin": dünən, bu gün, sabah". Molla Nəsrəddin. Səkkiz cilddə, I cild. Bakı: Azərnəşr, 1996, s. 3

mədəni mərkəzlərin, əyalət və obaların, tarixi hadisə və şəxsiyyətlərin daima diqqət mərkəzində saxlanmaları əsas verirdi. Belə tarixi-inzibati və sosial-mədəni mərkəzlərdən biri də Gəncə şəhəri idi. Təsadüfi deyil ki, tarixən milli düşüncənin əsas ocaqlarından, ideya mərkəzlərindən hesab edilən Gəncə haqqında Məhəmməd Əmin Rəsulzadə "Azərbaycan Cümhuriyyəti" adlı monoqrafiyasında söz açarkən şəhər barəsində mövqeyinə belə aydınlıq gətirmişdi:

"Azərbaycan həyati-milliyəsində təsirati-mühümməsi bulunan ikinci mərkəz Gəncədir. Gəncədə təsis edilən "Mədrəseyi-ruhaniyyə" vəqtilə milliyyətpərvərlik ruhunun təqviyə edilən ən mühüm mərkəzi idi. Buradan Azərbaycan bir çox müəllimlər, mühərrirlər və şairlər qazanmışdır. Məzkur (yuxarıda adı çəkilmiş, söylənmiş – S.N.) məktəbin əhəmiyyətini dərk edən çarizm burasını çabuq qapamaqla "təhlükə"nin önünə keçmək istəmişdir..."[1]

Şəhərin (və ətrafının) sosial-siyasi, mədəni-mənəvi həyatında cərəyan edən hadisə və proseslərə həm dövlətin, həm də "Molla Nəsrəddin" jurnalının belə həssaslıq göstərməsinin bu cəhətdən təsadüfi hal olmadığı tədqiqatda hərtərəfli surətdə öz əksini tapmışdır. Çünki zaman-zaman zəngin tarixi, mədəni, ədəbi və dövlətçilik ənənələrinə malik olub Əbülüla Gəncəvi, Məhsəti Gəncəvi, Nizami Gəncəvi və b. dühaların doğulub boya-başa çatdığı Gəncə şəhərinin ictimai-mədəni həyatı XIX əsrin sonları və XX əsrin əvvəllərində də özünün fəallığı, Azərbaycanın taleyüklü problemlərinə həssas və ayıq reaksiyası ilə diqqəti cəlb edirdi; burada mədəni-maarifçilik, yeni istiqamətli təhsil-tədris, teatr və dramaturgiya, xeyriyyəçilik tədbirləri, etnik milli proseslər və s. milli təəssübkeşlik mövqeyindən həyata keçirilir, cərəyan edirdi. Mirzəbala Məhəmmədzadənin yazdığı kimi, öz növbəsində " "Molla Nəsrəddin" şirin dillər ilə acı həqiqətlərimizi öylə mahiranə, öylə ehtiyatkaranə axtarıb çıxaryordu ki, gizli nöqsanlarımızı öylə arayıb bulur, din, dil, qadın, maarif, tərbiyə, ictimaiyyə, ticarət, rəqabət, siyasət, tərəqqi, mədəniyyət və hər cəhətdən ehtiyacatımızı öylə təsvir edə bilmişdir ki, bu gün "Molla Nəsrəddin" nüsxələri ictimai-mədəni hərəkatımızın keçirtmiş olduğu tarixi dövrlərini təsvir üçün istifadə edilə bilinərlər".[2]

Tədqiqat işində qeyd olunur ki, bütün bu uyğun cəhətlər Gəncənin ictimai-mədəni və ədəbi mühiti ilə "Molla Nəsrəddin" jurnalı arasında tezliklə qarşılıqlı yaradıcılıq əlaqələrinin yaranmasına gətirib çıxarmışdır.

---

[1] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, s. 19-20

[2] Məhəmmədzadə M. Azərbaycan türk mətbuatı. Ərəb əlifbasından çevirib tərtib edən, ön söz, lüğət və qeydlərin müəllifi: filologiya elmləri doktoru Alxan Bayram oğlu Məmmədov. Bakı, 2004, s. 49-50

(Göstərilənlərdən əlavə "Qeyrət" mətbəəsinin Gəncəyə köçürülməsi təşəbbüsü də məlumdur.) Nəticədə "Molla Nəsrəddin"in ideya-ədəbi, estetik mövqeyinin güclənməsində və jurnalın uzunömürlülüyünün təminində Gəncə ədəbi mühiti və müəllifləri əhəmiyyətli rol oynadı. Təsadüfi deyil ki, "Molla Nəsrəddin" jurnalı, onun ictimai-ədəbi mövqeyi barədə yazılan demək olar ki, bütün tədqiqatlarda C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, Ə.Haqverdiyev, M.Ə.Sabirlə yanaşı, onun gəncəli müəllifləri, onların xidmətləri haqda da bəhs edilmişdir. Çünki "Molla Nəsrəddin" məcmuəsinin ideya mübarizəsinə dəstək verən silahdaşları arasında Gəncədən olan müəlliflərin xüsusi yeri, özünəməxsus dəst-xətti var. "Molla Nəsrəddin"in ədəbi-ictimai mühitdə əks-səda doğurmuş müəllifləri – Əli Nəzmi, Əli Razi Şamçızadə, Mirzə Məhəmməd Axundov və başqaları zamanında dövrün ictimai haqsızlıqlarına yönəlmiş satirik yazılarını müntəzəm olaraq jurnalın səhifələrində dərc etdirmişlər. Saysız təqiblər şəraitində belə, "Molla Nəsrəddin"in müxbirlərinin onunla əlaqəni kəsmədiklərinə, əksinə, getdikcə genişlənən yaradıcı ünsiyyətdən ilhamlanaraq cəmiyyətdəki nöqsanları ifşa edən tənqidi yazılarla jurnalda çıxış etmələrinə dair məsələlərin şərhinə dissertasiyada geniş şəkildə yer ayrılmışdır.

Bütün bunlar "Molla Nəsrəddin"in Azərbaycan ədəbi-ictimai fikrindəki mövqeyinin daha dolğun və mükəmməl elmi mövqedən dərk edilməsinin təmini naminə onun yaradıcılıq istiqamətlərinin jurnalla əməkdaşlıq etmiş çoxsaylı şair, yazıçı və publisistlərin, o cümlədən Gəncə ədəbi mühitindən olan müəlliflərin fəaliyyəti kontekstində araşdırılması zərurətini ortaya qoyur. Mövzunun aktuallığını da həmin həlli vacib elmi-nəzəri vəzifələr şərtləndirir.

**Mövzunun araşdırılmasına dair.** Ayrı-ayrı tədqiqatçılar – Ə.Şərif, C.Xəndan, Mir Cəlal, Ə.Mirəhmədov, A.Zamanov, M.Məmmədov, K.Məmmədov, F.Hüseynov, İ.Həbibbəyli, İ.Ağayev, T.Novruzov, A.Bayramoğlu və b. "Molla Nəsrəddin" jurnalının Gəncə ədəbi mühitindən olan müəllifləri, onların mövzu, ideya, ədəbi-estetik yaradıcılıq axtarışları haqda bu və ya başqa şəkildə bəhs etmiş, dəyərli elmi fikirlər söyləmişlər. Bunlardan professor F.Hüseynov, İ.Ağayev və A.Bayramoğlu Ə.Nəzmi, Ə.R.Şamçızadə və M.M.Axundov haqda ayrıca tədqiqat əsərləri yazıb çap etdirmiş, onların ədəbi irslərinin nəşrində əhəmiyyətli xidmətlər göstərmişlər. Filologiya elmləri namizədləri E.Qasımova, Ə.Nəzminin "Keçmiş günlər" mənzum xatirəsini,[1] Rauf Sadıxov isə M.M.Axundovun dram əsərlərini

---

[1] Nəzmi Ə. Keçmiş günlər (xatirələr). Transliterasiya edib çapa hazırlayan, "Ön söz", "Lüğət", "İzahlar"ın müəllifi: filologiya elmləri namizədi Elmira Qasımovadır. Bakı: Adiloğlu, 2006

nəşr etdirmiş[1],V.Mahmudova onun "Səd Vəqqas, yaxud fəthi-Qüdsiyyə" əsərini tədqiq etmiş,[2] junalist-tədqiqatçı N.R. İsrafiloğlu M.M.Axundovun ömür yoluna işıq salan elmi-kütləvi bir kitab[3] çap etdirmişdir. Lakin özlüyündə dəyərli elmi tezis və fikirlərlə zəngin olan həmin araşdırmaların hər birində Ə.Nəzmi, Ə.R.Şamçızadə və M.M.Axundovun ümumən həyat və yaradıcılıq yollarından danışılmış, onların "Molla Nəsrəddin" ədəbi məktəbinin tanınmış nümayəndəsi olmaları, "Molla Nəsrəddin" mövzularında yazdıqları, Sabir poeziya ənənələrinə mənsub olmaları xüsusi vurğulanmışdır. Haqqında söhbət gedən ədəbi şəxsiyyətlərin digər mətbu orqanlarda dərc edilən və bütövlükdə yaradıcılıq irslərini əhatə edən əsərləri təhlilə cəlb olunduğu üçün onların "Molla Nəsrəddin" ədəbi məktəbinə verdikləri töhfələrin müəyyənləşdirilməsi xüsusi tədqiqat predmetinə çevrilməmişdir. Halbuki belə bir işin yerinə yetirilməsi həm də mollanəsrəddinçiliyin ideya-estetik prinsiplərinin daha aydın elmi dərkinə xidmət etmiş olardı.

Son vaxtlar, daha doğrusu, 1997-ci ildə tədqiqatçı Qivami Qazıyevin "Gəncə ədəbi mühiti (1900-1920)" adlı kitabı[4] çapdan çıxmışdır. 2011-ci ildə isə müəllif (Q.Qazıyev) filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün "Gəncə ədəbi mühiti (1900-1930)" mövzusunda dissertasiya[5] müdafiə etmişdir. Araşdırmadan bəlli olur ki, kitabla dissertasiyanın fəsilləri tamamilə eynidir; dissertasiyada "Molla Nəsrəddin" və onun Gəncə ədəbi-siyasi mühiti ilə əlaqəsi" adlanan I fəsil 21-40-cı səhifələri, "Ə.Ruhi, Ə.Şövqi, M.M.Axundovun həyatı və mövcud quruluşun tənqidi" adlı II fəsil isə 41-146-cı səhifələri əhatə edir.

Dissertasiyada Q.Qazıyevin mövzu ilə bağlı olan ədəbi-tarixi materialları yetərincə təhlilə cəlb edə bilmədiyi, fəsillər arasındakı həcm nisbətinin qeyri-mütənasibliyindən başqa, seçilən təhlil üsulunun bütövlükdə Gəncə ədəbi mühiti haqda təsəvvür yaratmadığı aparılan təhlillərdən bəlli olur. Dissertasiyanın ən irihəcmli hissəsi olan II fəslinin də "Molla Nəsrəddin" jurnalı ilə demək olar ki, əlaqəsi yoxdur.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işində başlıca araşdırma obyekti kimi Gəncədən olan mollanəsrəddinçi müəlliflərin jurnalda çap edilmiş əsərləri, Gəncə və onun ətrafında baş verən hadisələrə "Molla

---

[1] Axundov M.M. Dram əsərləri. Transliterasiya, tərtib edəni və ön sözün müəllifi: filologiya elmləri namizədi Rauf Sadıxov. Bakı: Mütərcim, 2003

[2] Mahmudova V. İslam tarixi Azərbaycan dramaturgiyasında. Bakı: Səda, 2006

[3] İsrafiloğlu N.R. Mirzə Məhəmməd Axundov. Bakı: Mütərcim, 2006

[4] Qazıyev Q. Gəncə ədəbi mühiti (1900-1920). Gəncə, 1997

[5] Qazıyev Q. Gəncə ədəbi mühiti (1900-1930), namizədlik dissertasiyası, Gəncə, 2011, AMEA-nın Mərkəzi Elmi Kitabxanası

Nəsrəddin"in ümumazərbaycan kontekstində diqqətini ifadə edən çeşidli materiallar, gəncəli mollanəsrəddinçilər, ümumən "Molla Nəsrəddin" ədəbi və Sabir poeziya məktəbi, həmçinin milli ədəbiyyatşünaslığın digər uğurlarına həsr edilmiş elmi və elmi-kütləvi əsərlərdir.

Tədqiqatın predmetini isə Gəncə ədəbi mühitinin nümayəndələrinin bu mətbu orqandakı fəaliyyət istiqamətləri, onların "Molla Nəsrəddin" ədəbi məktəbinin genişlənərək inkişaf etməsində göstərdikləri saysız cəhdlərin qısa vaxtda öz bəhrəsini verməsinə dair məqamların şərhi təşkil edir. Tədqiqat işində Gəncə ədəbi mühitindən olan müəlliflərin ümumən şəhər həyatında baş verənləri aydın şəkildə açıqlamağa istiqamətlənmiş fəaliyyətləri üzərində də ətraflı təhlil aparılmışdır.

Tədqiqat işində "Molla Nəsrəddin" məcmuəsi ilə Gəncə ədəbi mühitinin nümayəndələrinin yaradıcı surətdə əlaqəsini, satirik məcmuənin Gəncənin ictimai-ədəbi və mədəni həyatına təsiri məsələsini araşdırarkən ədəbiyyatşünaslığa dair ayrı-ayrı məqalə, kitab və monoqrafiyalardan istifadə olunmuşdur. Digər tərəfdən, Gəncənin o zamankı tarixini əks etdirən müxtəlif səpkili materiallar − çap nümunələri, xatirə və s. istifadə edilməklə dövrün ümumi mənzərəsinə nəzər salınmışdır.

Cəmiyyət həyatının aydın güzgüsünə çevrilmiş, yaranışı ilə xalqın milli-azadlıq mübarizəsinə təkan olmuş "Molla Nəsrəddin" jurnalının müxbirləri, müəllifləri haqqında çap olunmuş çox sayda əsər – məqalə, rəy və xatirə nümunələri, karikaturalar, "Molla Nəsrəddin" komplektlərinin təkrar nəşri (1996-2010) də tədqiqatın materialıdır.

**Dissertasiyanın elmi-nəzəri və metodoloji əsası.** Dissertasiya işi tarixi-müqayisəli metodun prinsipləri, həmçinin milli ədəbiyyatşünaslığın və mollanəsrəddinşünaslığın əldə etdiyi uğurlar əsasında yazılmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqat işində "Molla Nəsrəddin" jurnalının fəaliyyəti Gəncə ədəbi mühitindən olan sənətkarların mətbu orqanla əlaqələri fonunda təhlil olunmuşdur. Bununla yanaşı, o dövrün real mənzərəsinə, Gəncədə cərəyan edən proseslərin mahiyyətinə jurnalın baxışını əks etdirən məqamları müəyyən etmək, eyni zamanda "Molla Nəsrəddin" jurnalının Gəncə ədəbi mühiti ilə bağlılığını sübuta yetirən cəhətləri hərtərəfli tədqiq və təhlil etmək qarşıya başlıca vəzifə olaraq qoyulmuşdur. Bu məqsədlə Gəncənin o zamankı tarixini əks etdirən müxtəlif səpkili materiallara istinad edilmişdir. Digər tərəfdən, qeyd olunan məsələlər aşağıdakı vəzifələrin yerinə yetirilməsi zərurətini də yaratmışdır:

– "Molla Nəsrəddin" jurnalının səhifələrində dərc olunmuş müxtəlif janr və məzmunlu əsərlərdən bəhrələnərək Gəncənin o dövrkü ictimai-ədəbi və mədəni durumuna aydınlıq gətirmək;

– Gəncənin ictimai-mədəni həyatında baş verən proseslərin publisistik formada – felyeton, məqalə, “poçt qutusu”, “teleqraf xəbərləri” və s. şəkildə təqdiminə dair məqamları araşdıraraq təhlilini vermək;

– Gəncədəki mövcud reallıqlara “Molla Nəsrəddin”in münasibətinin ideya-estetik cəhətlərini şərh etmək;

– Gəncə ədəbi mühitinin nümayəndələrinin jurnalın nəşri müddətindəki fəallığını nəzərə çatdırmaqla onların “Molla Nəsrəddin” ədəbi məktəbinin zənginləşməsindəki həlledici rollarını xüsusi dəyərləndirmək;

– Gəncə ədəbi mühitindən olan müəlliflərin Sabir poeziya məktəbinin genişlənərək inkişaf etməsindəki xidmətlərini hərtərəfli şəkildə üzə çıxarmaq;

– “Molla Nəsrəddin” satirik məcmuəsində çıxış etmiş digər müəlliflər ətrafında da araşdırma apararaq yeni faktlar üzə çıxarmaq, onların yaradıcılıq keyfiyyətlərini aşkar etmək.

**Dissertasiyanın elmi yeniliyi.** Tədqiqat işində “Molla Nəsrəddin” jurnalı səhifələrində Gəncənin ictimai-mədəni və ədəbi həyatına həsr edilən müxtəlif xarakterli və janrlı materiallar – məqalə, şeir, teleqraf xəbəri, poçt qutusu, karikatura, satirik səfər təəssüratı və s. ilk dəfə olaraq sistemli elmi təhlilə cəlb edilmiş, bununla Gəncənin timsalında Azərbaycanda gedən sosial-psixoloji, mənəvi-əxlaqi proseslər, ədəbi-estetik yaradıcılıq axtarışlarının mənzərəsi və mahiyyəti haqqında elmi təsəvvür yaradılmışdır.

Mövcud tədqiqatlardan fərqli olaraq “Molla Nəsrəddin” jurnalının Gəncədən olan müəllifləri – Əli Nəzmi, Əli Razi Şamçızadə, Mirzə Məhəmməd Axundov və b. mollanəsrəddinçiliyin, Sabir poeziya ənənələrinin bir ədəbi cərəyan kimi formalaşmasında, mövzu və problematika cəhətdən genişlənərək dolğunlaşmasında oynadıqları nəzərəçarpacaq rolları konkret ədəbi materialların təhlili vasitəsilə açıqlanmışdır. Həmin elmi təhlillərin işığında “Molla Nəsrəddin”in Gəncəyə, Gəncə ictimai-ədəbi həyatına xüsusi diqqət yetirməsinin səbəblərinə aydınlıq gətirilmişdir. Eyni zamanda jurnalın poeziya məktəbi ilə yanaşı, publisistika sahəsinin mövzu və janr əlvanlığının təminində Ə.Nəzmi, Ə.R.Şamçızadə, M.M.Axundovun xidmətlərinə ayrıca diqqət yetirilmişdir.

Gəncəli müəlliflərin jurnaldan, orada dərc edilən materiallardan bəhrələndikləri kimi, özlərinin də “Molla Nəsrəddin” səhifələrində yeni mövzuların və yazı maneralarının üzə çıxarılmasında oynadıqları rolu əks etdirən konkret materiallar təhlilə cəlb edilmişdir. Bütün bunlar mollanəsrəddinşünaslığın bəzi tezislərinin inkişaf etdirilməsi və yeni fikirlərlə zənginləşməsi ilə nəticələnmişdir.

Məsələn, göstərilmişdir ki, “Molla Nəsrəddin” jurnalının mənsur

felyeton janrı, açıq məktub formalı satirik şeir forması Əli Nəzminin, satirik məktub-felyeton isə Əli Razi Şamçızadənin adı ilə bağlı olmuşdur. Əli Nəzmi jurnalın Ana dilinin saflığı uğrunda mübarizəsinin yeni-yeni səhifələrinin açılmasında və inkişaf edib zənginləşməsində də xüsusi rol oynamışdır.

Jurnal səhifələrində yer alan tapmaca və tapmaca-cavab formalı şeirlər əsasən Ə. Nəzmi və Ə.R.Şamçızadə qələminə məxsusdur.

"Molla Nəsrəddin"in qadın azadlığı uğrunda mübarizəsinin formalaşaraq kifayət qədər inkişaf etməsində və daim gündəmdə qalmasında, həmin problemin ən müxtəlif çalarda, ideya-estetik mükəmməllik kəsb etməsində Ə.R.Şamçızadənin xidmətlərinə aydınlıq gətirilmişdir.

Jurnalın dilin saflığı, mədəni maarifçiliyin inkişafı istiqamətində apardığı mübarizənin məktəbdarlıq, teatr və dramaturgiya sahəsində də qoyulub həyata keçirilməsində M.M.Axundovun xidmətləri barədə olan elmi tezislər inkişaf etdirilmişdir.

**Dissertasiyanın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiyanın nəticələrindən "Molla Nəsrəddin" ədəbi hərəkatının və realizm yaradıcılıq üslubunun, Azərbaycan ictimai-mədəni və ədəbi fikrinin inkişafında jurnalın oynadığı rolun aydın elmi şərhinə, həmçinin onun gəncəli müəlliflərinin yaradıcılıqlarına həsr edilmiş elmi-tədqiqat işlərində, dərslik və metodik vəsaitlərin, tədris proqramlarının hazırlanmasında bəhrələnmək olar. Bundan başqa ali təhsil müəssisələrində bu mövzuda xüsusi kurs keçilməsi məqsədə uyğundur.

**İşin aprobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun Yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir. Tədqiqatın başlıca nəticə və yekunları elmi və metodik jurnallarda müxtəlif məqalə və tezislər şəklində dərc olunmuş, elmi konfranslarda geniş auditoriyaya çatdırılmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, elmi-nəzəri və metodoloji əsası şərh olunmuş, dissertasiyanın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti aydınlaşdırılmışdır.

Dissertasiyanın I fəsli **"Gəncənin ictimai-ədəbi və mədəni həyatı "Molla Nəsrəddin"in səhifələrində"** adlanır və iki yarımfəsildən ibarətdir.

**“Gəncədəki sosial-mədəni proseslər “Molla Nəsrəddin”in gözü ilə”** adlanan birinci yarımfəsildə qədim və zəngin tarixə malik olan, inzibati və mədəni-mənəvi ənənələrə söykənən Gəncənin XIX və XX əsrlərdə də ölkədə baş verən sosial-siyasi, ədəbi-mədəni proseslərdə fəal və nəzərəçarpacaq iştirakı qeyd olunmuşdur. Tədqiqatda milli ideyaların formalaşması, yayılması və inkişafı yönündə vaxtilə Gəncədə bəzi ərazilərdən fərqli şəkildə, üstün şəraitin mövcud olduğu diqqətə çatdırılmaqla yanaşı, XX əsrin əvvəllərində şəhərdə genişmiqyaslı fəaliyyət göstərmiş xeyli sayda milli siyasi təşkilatların, partiyaların, cəmiyyətlərin işinə münasibət ifadə olunmuşdur.

Göstərilmişdir ki, Gəncədə xeyriyyə cəmiyyətlərinin fəaliyyət planında əksərən savadsızlığın ləğvinə yönəlmiş tədbirlər əsas yer tuturdu.

Cəlil Məmmədquluzadə xalqın milli ictimai-mədəni şüurunun formalaşması və inkişafında Gəncə ədəbi-ictimai mühitinin oynadığı rolun əhəmiyyətini və çəkisini bütün aydınlığı ilə gördüyü üçündür ki, “Molla Nəsrəddin” jurnalının materiallarında Gəncə həyatına, onun sosial-mədəni mühitində cərəyan edən mənəvi-psixoloji proseslərə də xüsusi yer ayrılırdı.

Burada “Molla Nəsrəddin” jurnalının səciyyəvi keyfiyyətlərinin Gəncə ədəbi-ictimai mühitində elə həmin günlərdə başa düşüldüyü və qaraguruh tərəfindən təkfir edildiyi halda, qabaqcıl görüşlü ictimaiyyət tərəfindən təqdir edilib yüksək qiymətləndirildiyi tədqiqata cəlb olunmuşdur. Araşdırmadan da göründüyü kimi, məcmuənin 1906-cı il 14-cü sayında yer almış “Gəncə” başlıqlı yazıdan “Molla Nəsrəddin”in ədəbi mübarizədə tutduğu mövqe aydınlaşmış olur:

“A Molla Nəsrəddin! Belə ki, görürəm, səndə çox işlər vardır. Sənin əlindən hər iş gəlir. Desən ki, yox, mən inanmayacağam. Mən bildiyimi bilirəm: heç vaxt bildiyimi babama verməyəcəyəm. Sən kaşifi-müşkülatsan. Özün də çıxıbsan meydana bu yolda çalışırsan. İndi bizim də bir müşkülümüz var, gəlsənə onu da həll edəsən...”[1]

Tədqiqat işində faktlara əsaslanmaqla o da qeyd olunur ki, şəhərdə az vaxt içərisində jurnala maraq durmadan artmış, köhnəpərəst qüvvələrin kəskin hücumları şəraitində belə, mətbu orqan sürətlə yayılaraq Gəncə ictimai mühitində böyük əks-səda oyatmışdı.

Azərbaycanın mövcud reallıqları fonunda ictimai-siyasi və ədəbi-mədəni həyatın görüntüləri (Gəncədə), o dövrdə baş verən proseslərə “Molla Nəsrəddin” jurnalının necə, hansı mövqedən yanaşması burada yer

---

[1] “Molla Nəsrəddin” jurnalı. 7 iyul 1906, № 14

alan müxtəlif xarakterli yazıların təhlili yolu ilə nəzərə çatdırılır. O cümlədən göstərilir ki, "Molla Nəsrəddin" jurnalı Gəncədə təsis olunub fəaliyyət göstərən xeyriyyə cəmiyyətlərinin işinə də daim diqqət yetirmiş, bu haqda bir-birindən maraqlı materiallar çap etmişdir.

Dissertasiyanın bu yarımfəslində müsəlmanları maarifləndirmək, yeni məktəblərin təşkili və bəzi mədəni tədbirlərin icrasında aktivlik nümayiş etdirmiş cəmiyyətlərin iş prinsiplərinin "Molla Nəsrəddin"in satirik söz hədəfindən yan keçmədiyi vurğulanmaqla, narazılıq doğuran cəhətlərə jurnalda yeri gəldikcə xalq mənafeyindən münasibət ifadə olunmasına dair məsələlərin təhlilinə də geniş yer ayrılmışdır:

"A Molla Nəsrəddin əmi! Axı, hərdənbir iltifat nəzərilə Gəncəyə baxırdın, indi nə oldu birdən-birə gəncəliləri yaddan çıxardıbsan? Görükür ki, sən elə bilirsən ki, Gəncə irəliki Gəncədir? Xeyr, səhvin var, sən görən kimi deyil".[1]

Tədqiqatda ötən əsrin əvvəllərində mövcud şəraitdən asılı olaraq Gəncədə nəinki teatr sahəsində, o cümlədən başqa mədəni tədbirlərin icrası istiqamətində də ciddi maneələrə rast gəlindiyi satirik "Molla Nəsrəddin" məcmuəsində yer alan ədəbi nümunələrin təhlili yolu ilə nəzərə çatdırılmışdır.

"Molla Nəsrəddin"in ədəbi-ictimai mübarizədə mötəbər silahdaşlarından sayılan Əli Razi tərəfindən jurnalın 15 dekabr 1906-cı il tarixli 37-ci sayında "Gəncədən. Teatr məsələsi" adlı yazı çap edilmişdir. Gəncədən soraq verən satirik nümunədə teatr məsələsinə münasibətin o vaxtlar müxtəlif dairələrdə müzakirə obyektinə çevrilərək bu barədə kəskin qərarlar verilməsi ətraflı və aydın şəkildə əks olunmuşdur.

Tədqiqatda o da açıqlanır ki, ətrafdan yönələn çox sayda təqiblərə rəğmən, getdikcə teatrın təbliği və inkişafı yolunda mühüm addımlar atılır, Gəncədə teatr tamaşalarının hazırlanması kütləvi hal alır, belə mərasimlərin, mədəni tədbirlərin təşkilatçılarının sayı getdikcə çoxalırdı.

Gəncədə 1899-cu ildən fəaliyyətə başlayan teatr həyatının sonrakı irəliləyişində jurnalın Gəncə təmsilçilərindən Mirzə Məhəmməd Axundovun bu istiqamətdə gördüyü işlərin xüsusi dəyəri tədqiqatda qeyd olunmuşdur.

Gəncənin ictimai-ədəbi və mədəni həyatından soraq verən məlumatlara, o dövrü səciyyələndirən müxtəlif məzmunlu xəbərlərə aydınlıq gətirmək üçün tədqiqat işində "Molla Nəsrəddin"in səhifələrində dərc olunmuş

---

[1] "Molla Nəsrəddin" jurnalı. 6 yanvar 1907, № 1

yazıların təhlilinə geniş yer ayrılmışdır.

Birinci fəslin ikinci yarımfəsli **“Şəhərin mədəni-mənəvi mühiti jurnalın ədəbi-bədii nümunələrində”** adlanır. Bu yarımfəsildə “Molla Nəsrəddin” jurnalının ölkə həyatının ən müxtəlif sahələrində – siyasi, iqtisadi, təsərrüfat, mədəni, mənəvi, dini, etnik-mədəni, maarif və s. xarakterli hadisə və proseslərə həm də ədəbi-bədii, poetik və sənədli publisistik sözün vasitə və üsulları ilə fəal münasibət bildirdiyi diqqətə çatdırılmışdır. Həmin nümunələr içərisində xüsusi yer tutan, həmçinin Gəncə, onun ədəbi-mədəni mühiti ilə bu və ya başqa şəkildə bağlı olan çox sayda materiallar burada tədqiq olunmuşdur.

“Mozalanbəyin səyahətnaməsi”ndə Əbdürrəhim bəy Haqverdiyevin ümumən dövrün hadisələrini canlandırarkən “Molla Nəsrəddin”sayağı əksetdirmə üsulundan istifadə etdiyi də tədqiqatda açıqlanır. “Molla Nəsrəddin” jurnalının 30 iyun 1908-ci il tarixli 26-cı sayındakı “Sizə nə” başlıqlı şeirində “Məşədi Sijimqulu” (Əli Nəzmi) Mozalanbəyin Gəncə səyahəti zamanı baş verənləri yenidən göz önündə canlandıraraq:

Nafilə şəhrimizə seyrə gəlibdir Mozalan!
Hər nə gördükcə yazır jurnala bilcümlə yalan!
Ona nə borc yaza qəsdində iki dəstə cavan!
Məst, pişto atılır, əl qırılır, şişə, əmu![1]

– deyə onun (Mozalanbəyin) milləti doğru yola yönəltmək istəyini alqışlayırdı.

Gəncənin ədəbi-mədəni həyatında baş verən yenilikləri ardıcıl surətdə və hərtərəfli işıqlandıran elanlara “Molla Nəsrəddin”in səhifələrində geniş yer ayrıldığı dissertasiyada faktlarla əsaslandırılmışdır. Bu cəhətdən kitab çapına dair verilən elanlar o dövrdə xüsusi əhəmiyyətə malik olmaqla yanaşı, bir sıra tərəfləri ilə diqqəti cəlb edirdi. Belə ki, Gəncədə Əli Razi Şamçızadənin “Eşq və məhəbbət” kitabçasının çapdan çıxması, eyni zamanda “Hədyanlarım” başlıqlı məzhəkeyi-əşarının və “İslam qiraətxanası” adlı bir məclis, üç pərdədən ibarət məzhəkəsinin nəşr olunacağına dair məlumatları “Molla Nəsrəddin” jurnalının elanlarından almaq olar.[2]

**“Molla Nəsrəddin”in gəncəli müəllifləri”** adlanan II fəsildə “Molla Nəsrəddin” ədəbi məktəbinin formalaşmasında və inkişafında mühüm xidmətlərə malik olan jurnalın Gəncə təmsilçilərinin yaradıcılıq

---

[1] “Molla Nəsrəddin” jurnalı. 30 iyun 1908, № 26
[2] Bax: “Molla Nəsrəddin” jurnalı. 18 avqust, 1 sentyabr, 27 oktyabr 1908, № 33, № 35, № 43

yolundan ətraflı bəhs edilmişdir.

İkinci fəslin ilk yarımfəsli **“Jurnalın sosial-mədəni problemlərə dair mövzuları və onun gəncəli müəllifləri”** adlanır. Burada Gəncə ədəbi mühitinin nümayəndələrindən Əli Nəzmi, Əli Razi Şamçızadə və Mirzə Məhəmməd Axundovun ötən əsrin əvvəllərində Gəncənin ictimai-siyasi və mədəni həyatının mənzərəsini rəngarəng çalarlar və yüksək poetik vüsətlə canlandırdıqları, mollanəsrəddinçi ruha köklənmiş çoxsaylı, müxtəlif forma və məzmuna malik yazıları tədqiqat obyektinə çevrilmişdir. Əli Nəzmi, Əli Razi və Mirzə Məhəmməd Axundovun “Molla Nəsrəddin”ə üz tutaraq xalqın məruz qaldığı sıxıntıları bəyan etməyə çalışmaları onların şeir və publisistik yazılarında ən çox nəzərə çarpan əlamətlərdəndir.

Dissertasiyada “Molla Nəsrəddin” jurnalında ictimai həyatın bir sıra nöqsanlı cəhətlərini çəkinmədən kəskin tənqid və ifşa hədəfi seçmiş Əli Razinin jurnalın səhifələrində Gəncə həyatından soraq verən yazılarla çıxış etməsi hərtərəfli tədqiq olunmuşdur. Tədqiqatda, həmçinin çeşidli mövzulara yaradıcılığında yer ayıraraq bu yolla ətrafda gördüyü haqsızlıqlara qarşı səsini ucaldıb satirik ifadə tərzində özünün münasibətini bildirməsi müəllifin yaradıcılığından gətirilmiş nümunələr əsasında təhlilə cəlb olunmuşdur. “Molla Nəsrəddin” müəllifi belə məqamlarda ətrafdan ona aramsız hücumlar olunduğunu şeirlərindən birində açıq-aşkar bildirmişdi:

Biri qəmə, biri ağac göstərir,
Molla əmi, etmə kədər, yazmaram,
Qorxuzurlar – yazma, bizi jurnala!
Hər birinin əlində zorba paya.
Müxtəsəri, qorxuram, a Molla əmi,
Tap özünə xəbər yazan Gəncədən.[1]

“Molla Nəsrəddin” jurnalının uzunömürlülüyünə rəvac verən, xüsusilə də xalq tərəfindən sevilməsini şərtləndirən səbəblərdən biri heç şübhəsiz ki, oxucularla olduqca anlaşıqlı bir tərzdə ünsiyyət yaratması olmuşdur. Əli Nəzmi də vaxtilə həmin cəhətləri nəzərə alaraq yazırdı:

“Mirzə Cəlil məcmuənin ilk günlərindən başlayaraq öz yazılarını tamamilə sadə və xalqın anlayacağı bir dildə yazmağa girişmişdi. Mirzə Cəlil “Molla Nəsrəddin” adını qəbul etməkdə doğru hərəkət etmişdi. Çünki tarixi Molla Nəsrəddində olduğu kimi, Mirzə Cəlildə də xalqı daha yaxşı

[1] “Molla Nəsrəddin” jurnalı. 15 noyabr 1909, № 46

başa salmaq üçün bir sadəlik vardı.[1]

Bütövlükdə "Molla Nəsrəddin" müəlliflərinin göndərdikləri yazıların jurnalın ictimai-ədəbi, ideya-estetik mövqeyinin güclənməsinə, daha da genişlənməsinə xidmət etdiyi dissertasiyada müxtəlif fikir və mülahizələr vasitəsilə əsaslandırılmışdır.

Tədqiqatda Ə.Nəzminin felyetonlarının "Molla Nəsrəddin"i həm mövzu və problematika cəhətdən, həm də janr və üslub baxımından zənginləşdirdiyi də xüsusi qeyd edilir. Göstərilir ki, jurnalın mənsur felyeton və açıq məktub üslubu Əli Nəzmi qələminin qüdrəti və işığı ilə görünməyə başlamışdır. Əli Nəzminin Mirzə Ələkbər Sabir üslubunda yazdığı ilk satira da açıq məktub üslubunda, onun öz ustadına müraciət formasında qələmə alınmışdır.

Dissertasiyanın **"Mənəvi-əxlaqi və hüquqi problemlərin bədii-publisistik əksi məsələləri"** adlanan ikinci yarımfəslində cəmiyyət həyatında, ümumən millətin tarixi taleyində dərin iz buraxmış hadisələri "Molla Nəsrəddin" jurnalının ictimai təhlil hədəfinə çevirdiyi araşdırılmışdır.

Jurnalın yaradıcılıq mübarizəsinin ən mühüm istiqamətlərindən birini də Ana dilinin varlığı və saflığı uğrunda çalışmaq təşkil edirdi. İlk sayından etibarən "türkün açıq ana dili ilə" (Cəlil Məmmədquluzadə) oxucularla ünsiyyət quran "Molla Nəsrəddin" jurnalı bütün nəşri müddətində bu qətiyyətini pozmadı.

Dissertasiyada jurnalın Gəncədən olan müəlliflərindən Əli Nəzminin bu istiqamətdəki xidmətləri tədqiq olunarkən onun yaradıcılığından gətirilmiş nümunələr də hərtərəfli təhlilə cəlb olunmuşdur. Göstərilmişdir ki, "Molla Nəsrəddin"in Ana dilinin saflığı uğrunda mübarizə cəbhəsini özünün bu məsələdə də ardıcıl mövqeyi və əzmkarlığı ilə daha da qüvvətləndirən şair yazmışdır:

Göz dururkən yazaq nə eyn, nə çeşm,
Gizlini gizlədib nəhan deməyək.
Var ikən türklərin oxu, yayı,
Kirpiyə tir, qaşa kəman deməyək.
Ya günə ruz, ruzigar yelə,
Gecələr söyləyək, şəban deməyək...[2]

Jurnalın gəncəli müəlliflərinin, o cümlədən Mirzə Məhəmməd Axundovun "Molla Nəsrəddin"in Ana dili məsələsinə münasibətdə tutduğu

---

[1] Məmmədquluzadə C. (Məqalələr və xatirələr məcmuəsi). Bakı, 1967, s. 109
[2] Nəzmi Ə. Seçilmiş əsərləri. Tərtib edəni və ön sözün müəllifi: Firidun Hüseynov. Bakı: Şərq-Qərb, 2006, s. 292

mövqeyi təkcə şeir, məqalə və felyetonları ilə deyil, digər janrda yazdığı əsərlərlə də müdafiə etməsi tədqiqatda əsas yer alır. M.M.Axundovun 1908-ci ildə yazdığı "Türk oğulları, ya ki dil yağıları" adlı səhnə əsərində Ana dilinin təmizliyinin qorunması məsələsinin qoyulması bu istiqamətdə aparılmış araşdırmalara istinad edilməklə nəzərə çatdırılmışdır:

"M.M.Axundov öz Ana dilinə yağı kəsilən oxumuş cavanlarımızın, türk oğullarının səhnəyə gətirilməsi işini 1908-ci ildə "Türk oğulları, ya ki dil yağıları" əsərində gördü. C. Məmmədquluzadə 1919-cu ildə "Anamın kitabı" əsərində həmin vəzifəni daha geniş planda və milli-əxlaqi məzmunda, fəlsəfi tutumda həyata keçirdi".[1]

"Molla Nəsrəddin" jurnalının və ümumən Azərbaycanın qabaqcıl görüşlü, açıq fikirli nümayəndələrinin xüsusi kəskinlik və ardıcıllıqla diqqət yetirdiyi məsələlərdən biri də qadın hüquqsuzluğu, cəmiyyətdə, ailədə qadının yeri və rolu, azyaşlı qızların yaşlı kişilərə ərə verilməsi, qadınların təhsili və mədəni, mənəvi-əxlaqi, dünyagörüş səviyyəsinin yüksəldilməsi problemi idi. Həmin problemlə bağlı jurnalda çoxlu və zəngin çeşidli materiallar – məqalə, karikatura, şeir, felyeton, "poçt qutusu", hekayə və s. çap edilmiş, problemin ciddiliyi və mövcud vəziyyətin dözülməzliyi, milli fəlakət həddinə çatması haqda dolğun təsəvvür yaradılmışdır. C.Məmmədquluzadənin, M.Ə.Sabirin, Ə.Nəzminin, jurnalın rəssamlarının və digər müəlliflərinin bu problemə həsr edilmiş çoxsaylı, kifayət qədər yüksək ideya-estetik mündəricəli əsərləri tədqiqatda əsas araşdırma obyektinə çevrilmişdir. Qadın hüquqsuzluğu mövzusunda ən çox və ardıcıl yazan, məsələnin bütün tərəflərini və mahiyyətini incəliklərinə qədər əks etdirməyə çalışan mollanəsrəddinçi müəllif, Gəncə ədəbi-ictimai mühitinin yetirmələrindən biri – "Dabanıçatdaq xala" satirik gizli imzası ilə məşhur olan Əli Razi Şamçızadənin bu istiqamətdəki yaradıcılığı üzərində aparılmış təhlillərə dissertasiyada xüsusi yer ayrılmışdır.

**Nəticədə** elmi araşdırmadan əldə edilmiş qənaətlər ümumiləşdirilmiş, alınan nəticələr təqdim olunmuşdur.

Ötən XX əsrin başlanğıcının mürəkkəb ictimai-siyasi şəraiti milli-mənəvi özünüdərk proseslərinin daha da dərinləşməsi, geniş miqyas alması ilə müşayiət olunurdu. Azərbaycanın digər bölgələri kimi, Gəncə də bu cür demokratik dəyişmələr baş verirdi. Həmin proseslərin normal getməsində böyük Mirzə Cəlilin redaktorluğu ilə nəşr olunan "Molla Nəsrəddin" jurnalı kimi onun gəncəli müəlliflərinin də rolu nəzərə çarpacaq dərəcədə idi.

---

[1] Bayramoğlu A. M.M. Axundov irsinin tədqiqi və nəşri tarixinə dair // AMEA-nın Xəbərləri. Humanitar elmlər seriyası. Bakı: Elm, 2008, № 1, s. 25

Jurnalda Gəncənin ictimai-ədəbi və mədəni həyatının dolğun bədii əksini verən çeşidli yazılar bu mətbu orqanla Əli Nəzmi, Əli Razi, Mirzə Məhəmməd Axundov və başqa qələm sahiblərinin "Molla Nəsrəddin" jurnalının tutduğu ideya-mübarizə cəbhəsinə münasibətlərindən soraq verir.

Bu qarşılıqlı diqqət "Molla Nəsrəddin"in səhifələrində yer alan çoxsaylı və müxtəlif janrlı materiallarda özünün ideya-bədii əksini tapmışdır. Bütün bunlar ölkənin sosial-siyasi və ictimai-ədəbi həyatında Gəncənin oynadığı roldan, tutduğu sağlam mövqedən irəli gəlmişdir.

"Molla Nəsrəddin" ədəbi cəbhəsinin formalaşaraq yeni-yeni ideya, mövzu və sənətkarlıq keyfiyyətləri baxımından zənginləşməsində, jurnalda mənsur felyeton janrının, cavab satiraların, tapmaca və tapmaca-cavab şəklində satirik şeir formalarının, açıq məktub, müraciət üslublu şeirlərin meydana çıxması, Ana dilinin saflığı uğrunda mübarizənin daim aktual bir mövzu olaraq saxlanıb inkişaf etdirilməsində, Mirzə Cəlilin felyeton, Mirzə Ələkbər Sabirin inqilabi satira ənənələrinin inkişaf etdirilib forma, mövzu və ideya-estetik cəhətdən zənginləşməsində Əli Nəzmi, Əli Razi Şamçızadə, Mirzə Məhəmməd Axundov və digər gəncəli müəlliflər öz əsərləri ilə misilsiz xidmətlər göstərmişlər.

**Dissertasiyanın əsas məzmunu aşağıdakı məqalə və tezislərdə öz əksini tapmışdır:**


1. "Molla Nəsrəddin" jurnalında xalq müdrikliyinin ifadəsi. Gəncə Dövlət Universiteti. Elmi Xəbərlər. Bakı: Nurlan, 2006, № 1, s. 65-68
2. Əli Nəzmi satiralarının ideya-məzmun xüsusiyyətləri. Gəncə Dövlət Universiteti. Elmi Xəbərlər. Bakı: Nurlan, 2007, № 1, s. 56-61
3. Представители литературной среды Гянджи на страницах «Молла Насреддин». Телавский Государственный Университет. Сборник научных трудов. №2 (24). Телави, 2008, стр. 271- 274
4. Mollanəsrəddinçi şair Əli Nəzmi. Gəncə Dövlət Universiteti. Elmi Xəbərlər. Gəncə, 2008, № 1, s. 175-179
5. "Molla Nəsrəddin" jurnalının gəncəli müəllifi. Gəncə Dövlət Universiteti. Professor-müəllimlərin, aspirant və gənc tədqiqatçıların elmi tədqiqat və yaradıcılıq işlərinin toplusu. Gəncə, 2008, s. 64-67
6. Gəncənin ictimai-ədəbi və mədəni həyatına dair xəbərlər "Molla Nəsrəddin"in elanlarında. Təhsil ocağı. Elmi-metodiki və publisistik jurnal, Bakı, 2009, № 1-2, mart-aprel, s. 103-108
7. "Molla Nəsrəddin"in satirik yazılarında Gəncə həyatı. Gəncə Dövlət Universiteti. Elmi Xəbərlər. Gəncə, 2010, № 1, s. 122-127
8. Gəncənin ictimai-ədəbi və mədəni həyatı "Molla Nəsrəddin"in

səhifələrində. Doktorantların və gənc tədqiqatçıların XIV Respublika elmi konfransının materialları. Bakı: ADU nəşriyyatı, 2010, s. 158-160
9. “Molla Nəsrəddin” dərgisində azərbaycançılıq ideyası. Bakı Slavyan Universiteti, Naxçıvan Dövlət Universiteti, Gəncə Dövlət Universiteti. Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş I Beynəlxalq elmi konfrans. 3-8 may 2010-cu il, Bakı-Naxçıvan-Gəncə, s. 501-504
10. Общественно-политическая жизнь Гянджи в журнале «Молла Насреддин». Вопросы филологических наук. № 4 (44). Москва. 2010 г. стр. 22-25
11. “Molla Nəsrəddin” dərgisinin Azərbaycan ədəbi-bədii fikrində mövqeyi. Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi. Azərbaycan xalqının milli özü-nütəsdiqində ədəbiyyat və mədəniyyətin yeri. Beynəlxalq konfransın materialları. Bakı: Elm, 2010, s. 135- 138
12. Gəncədəki xeyriyyə cəmiyyətlərinin fəaliyyəti “Molla Nəsrəddin”in səhifələrində. Gəncə Dövlət Universiteti. Elmi Xəbərlər. Gəncə, 2010, № 3, s. 164-171
13. Gəncə ədəbi mühitinin nümayəndələrindən Mirzə Məhəmməd Axundov. Bakı Slavyan Universiteti, Gəncə Dövlət Universiteti. Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr olunmuş II Beynəlxalq elmi konfransın materialları. II hissə, 4-7 may 2011-ci il, Bakı-Gəncə, s. 269-274
14. Mollanəsrəddinçi şair və publisist Əli Razi Şamçızadə. Doktorantların və gənc tədqiqatçıların XVI Respublika elmi konfransının materialları. II hissə, Bakı, “Müəllim”, 2012, s.47-51
15. Əli Razi Şamçızadənin yaradıcılığında qadın azadlığı mövzusu. Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu. Filologiya məsələləri. Bakı: Elm və təhsil, 2012, № 5, s. 429-433
16. Nizami Gəncəvinin ədəbi irsinə ehtiram nümunəsi. Gəncə Dövlət Universiteti. Nizami Gəncəvinin 870 illiyinə həsr olunmuş konfransın materialları. Gəncə, 2012, s. 143-146
17. Часть «Путевых заметок Мозаланбека», написанная Абдуррагимбеком Ахвердиевым. Ученые записки Таврического национального университета им. В.И.Вернадского. Научный журнал. Серия «Филология. Социальные коммуникации». Том 25 (64). № 2, ч.2. Симферополь, 2012, стр. 148-153
18. Mirzə Məhəmməd Axundovun teatr və dramaturgiya sahəsində

fəaliyyəti. Doktorantların və gənc tədqiqatçıların XVII Respublika elmi konfransının materialları. I cild, Bakı, 2013, s. 313-315
19. Sabir və Gəncə şairləri. Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu. Filologiya məsələləri. Bakı: Elm və təhsil, 2013, № 5, s. 378-387
20. Ana dilinin saflığının qorunması uğrunda "Molla Nəsrəddin" müəlliflərinin mübarizəsi. Azərbaycan Dillər Universiteti, Dil və ədəbiyyat. Bakı, 2013, № 4, s. 208-214

*С. А.Намазова*

# ЖУРНАЛ «МОЛЛА НАСРЕДДИН» И ЛИТЕРАТУРНАЯ СРЕДА ГЯНДЖИ

## РЕЗЮМЕ

С изданием журнала «Молла Насреддин» в истории национальной печати была заложена основа сатирической журналистики. За все время выхода журнала, подходя к событиям, происходящим в общественно-политической и социально-культурной жизни страны, с реалистическо-критической позиции, он своеобразно выражал свое отношения к ним.

Среди верных соратников идейной борьбы этого сатирического печатного органа гянджинские авторы занимают особое место. Представители литературной среды Гянжди – Али Назми, Али Рази Шамчызаде, Мирза Мухаммед Ахундов и др. выступали со страниц журнала своими сатирическими фельетонами, направленными на обличение несправедливостей, царивший в то время в общественной жизни страны. Несмотря на бесконечные преследования гянджинские авторы журнала «Молла Насреддин» не прерывали связи с журналом, напротив, регулярно публиковали на его страницах критические сочинения, обличающие пороки и недостатки в обществе.

В диссертационной работе в качестве основного объекта исследования служит отобранный обширный материал из публикаций гянджинских авторов в журнале «Молла Насреддин» и различные материалы, отражающие интерес и взгляд журнала на события, происходящие в Гяндже и его окрестностях.

Диссертация состоит их введения, двух глав, заключения и списка использованной литературы.

Во **Введении** обосновывается актуальность и значимость темы, определяются объект, предмет, цели и задачи, научно-теоретическая и методологическая основа исследования, научная новизна, теоретическое и практическое значение диссертации.

Первая глава диссертации – **«Общественно-литературная и культурная жизнь Гянджи на страницах журнала “Молла Насреддин”»** – состоит из двух частей. В первой части – **«Социально-культурные процессы в Гяндже с точки зрения журнала “Молла Насреддин”»** – отмечается активное участие

Гянджи – города с древней и богатой историей в социально-политических и литературно-культурных процессах, происходящих в стране в XIX-XX веках. В исследовательской работе выражено отношение к широкомасштабной деятельности многочисленных национальных организаций, партий и обществ, функционирующих в Гяндже в начале XX века.

Во второй части I главы – **«Культурно-духовная среда города в литературно-художественных образцах журнала» -** исследован многочисленный материал, тем или иным образом связанный с Гянджой и его литературно-культурной средой.

Во **II главе** под названием **«Гянджинские авторы журнала "Молла Насреддин"»** всесторонне охвачен и исследован творческий путь гянджинских представителей журнала, вклад которых в становлении и развитии литературной школы «Молла Насреддин» существенен и важен.

В первой части второй главы – **«Темы журнала, связанные с социально-культурными проблемами, и их гянджинские авторы»** – объектом исследования служат различные по форме и содержанию многочисленные сочинения представителей литературной среды Гянджи – Али Назми, Али Рази Шамчызаде, Мирзы Мухаммеда Ахундова, написанные в молланасреддиновском духе и отражающие картину общественно-политической и культурной жизни Гянджи начала XX века.

Во второй части главы – **«Вопросы художественно-публицистического отражения морально-нравственных и правовых проблем»** – к исследованию привлечены вопросы отражения и превращения журналом «Молла Насреддин» событий, сыгравших важную роль в общественной жизни страны, в объект общественного рассмотрения.

В **Заключении** подводятся итоги всему исследованию и обобщаются научные выводы.

***S. A.Namazova***

# "MOLLA NASRADDIN" MAGAZINE AND GANJA LITERARY ENVIRONMENT

## SUMMARY

The satirical jorunalism has been established in Azerbaijan by the publication of the magazine "Molla Nasraddin". Within the period of publication, the magazine approcahing the events arisen in the country's social-cultural and social-political life from the realistic position estimated them based its own manner.

The teachers from Ganja have outtstanding place amongst the like-minded persons who supported the ideological fight of the satirical media body. Amongst the representatives of Ganja literary environment – Ali Nazmi, Ali Razi Shamchizade, Mirza Mahammad Akhundov and other persons have apperared with their various articles in the pagses of the magazine, which aimed at criticizing the social injustice of the society.

Despite the correspondents of the magazine "Molla Nasraddin" from Ganja were exposed numerous pursuits, they didn't cut their relations with the magazine, quite contrary published their articles unmasking the defectice aspects in the society on the pages of the magazine regularly.

The main research object in the thesis includes the works of the authors of "Molla Nasraddin" from Ganja published in the magazine and other various materials expressing the attention of "Molla Nasraddin" towards the events arsien in Ganja.

The thesis consists of an introduction, two chapters, conclusion and used references.

The Introduction substantiates the topycality of the subject-matter, the research's object, subject, goal and duties, its scientific-methodological basis were explained, the scientific novelty hereof, theoretical and practical importance were elucidated.

The first chapter of the thesis (**"The social-literary and cultural life of Ganja in the magazine "Molla Nasraddin"**) consists of two sub-chapters. The first subchapter (**"The social-cultural processes by the standpoint of "Molla Nasraddin"**) deals with the the active involvment of Ganja having ancient and rich history in the social-political and literary-cultural events arisen within 19 and 20-th centuries. The research has elucidated the

various aspects related to the activity of numerous national political organizations, parties and associations at the begining of the 20-th century.

The second sub-chapter of the thesis (“**The cultural-spiritual environment of the city in the literary-cultural examples of the magazine**”) calls attention to numerous materials related directly to Ganja, its literary-cultural environment.

The second chapter of the thesis (“**Authors of “Molla Nasraddin from Ganja”**) touches upon the matters concerning the ways of artistic activity of the magazine’s authors from Ganja.

In the first sub-chapter of the second chapter (**“Subjects of the magazine related to the social-cultural themes and its authors from Ganja”**), the articles written by Ali Nazmi, Ali Razi Shamchizade and Mirza Mahammad Akhundov reflecting the social-political and cultural panorama of Ganja at the begining of the 20-th century with different forms and content.

In the second sub-chapter (“**The matters of expression of spiritual-ethical and legal problems in journalistic manner”)** the author analyses the social critical targets of the magazine “Molla Nasraddin“.

The conclusion presents the scientific results obtained in the course of the research.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ имени НИЗАМИ**

*На правах рукописи*

**СЕБА АЗАД кызы НАМАЗОВА**

# ЖУРНАЛ «МОЛЛА НАСРЕДДИН» И ЛИТЕРАТУРНАЯ СРЕДА ГЯНДЖИ

5716.01 – **Азербайджанская литература**

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание научной степени
доктора философии по филологии

**БАКУ – 2014**